**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ ELMİ ÜSLUB

İxtisas: 5706. 01 – “Azərbaycan dili”

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Mehriban İlyas qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2026**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Sayalı Allahverdi qızı Sadıqova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Həcər Emin qızı Hüseynova**

filologiya elmləri doktoru, professor
**İkram Ziyad oğlu Qasımov**

filologiya elmləri doktoru, dosent
**Aynur Famil qızı Paşayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
**Nadir Balaoğlan oğlu Məmmədli**

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri üzrə fəlsəfə doktoru,dosent
**Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**İsmayıl Oruc oğlu Məmmədli**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin 90-cı illərində ölkəmizdə müstəqilliyin əldə edilməsi Azərbaycan elminin inkişaf səviyyəsinin yüksəlməsinə geniş imkanlar yaratmışdır. Aparılan uğurlu islahatlar, milli inkişaf konsepsiyasının hazırlanması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi elm sahələrinin inkişafına səbəb olmuşdur. Elm sahələrinin inteqrasiyası, qarşılıqlı əlaqələrin güclənməsi dil vahidlərinin dinamikliyinə təsir göstərərək dilin fasiləsiz olaraq dəyişməsini və inkişafını şərtləndirir. Ədəbi dilin formalaşmasında üslubların qarşılıqlı əlaqəsi funksionallığı ilə seçilir. Üslubların funksionallaşmasında, təfəkkür tərzinin ifadə olunmasında istifadə olunan dil vahidlərinin birbaşa daxil olduqları sistemdə əlaqə münasibətləri əsas götürülür. İnkişaf prosesində dilin leksik qatında öz əksini tapan dil vahidləri fərqli nitq forması yaradaraq üslubları formalaşdırır. Bu ifadə formasında dil vahidləri birləşərək yerinə yetirdiyi funksiyadan asılı olaraq üslublar sistemı yaradır. Üslublar sistemində dil vahidləri kommunikativ məqsədə uyğun olaraq öz funksiyalarını müəyyən sferada reallaşıdırır. Bu sferalarda dil vahidlərinin seçimi funksional vəzifədən asılı olaraq müəyyənləşir və fikrin daha dəqiq şəkildə ifadə edilməsinə xidmət edir. Bu baxımdan funksional üslubların klassifikasiyasının əsasında düşüncə formaları, hər hansı bir sosial sahədə kommunikativ ünsiyyətə xidmət edən situativ vəziyyət dayanır. Bu xüsusiyyətlərin hər biri ədəbi dilin üslublarını formalaşdırır və yaranan funksional üslublar dilin daxili potensialını müəyyənləşdirir. Ədəbi dili inkişaf etdirən əsas üslublardan biri də elmi üslubdur. Elmi üslub müxtəlif mərhələlərdə fərqli şəkildə inkişaf etmişdir. Dilçilikdə bu istiqamətdə tədqiqatlar aparılmışdır. Vahid Adilov XIX əsr Azərbaycan ədəbi dilində elmi üslubun zənginləşmə mənbələrini və istiqamətlərini araşdırmışdır[1]. Dissertasiyada bu dövrdə elmi üslubun morfoloji və sintaktik xüsusiyyətləri təhlil olunmuş və inkişaf yolları müəyyənləşdirilmişdir. Afina Əlizadə XX əsrin əvvəllərində

---

[1] Adilov, V.Z. XIX əsr Azərbaycan ədəbi dilinin elmi üslubu / V.Z.Adilov– Bakı: – Nurlan. 2002 – 133 s.

Azərbaycan ədəbi dilində elmi üslub və onun inkişaf istiqamətləri ilə bağlı tədqiqat aparmışdır. Bu dövrdə yazılmış elmi əsərlər əsasında elmi üslubun əsas səciyyəvi xüsusiyyətlərini, yaranma yollarını və mənbələrini araşdırmışdır[2]. A. Ağayeva Müasir Azərbaycan ədəbi dilində üslubların bir-biri ilə qarşılıqlı əlaqədə inkişafını və onların keçid prosesini təhlil etmişdir[3]. Göründüyü kimi, müxtəlif dövrlərdə elmi üslubun inkişafı ilə bağlı tədqiqatlar aparılmışdır. Çünki elmi üslubun formalaşmasında əsas amil olan dil vahidlərinin inkişafı müxtəlif elm sahələri ilə bağlı terminoloji sistemlərin məcmusu kimi yaranır. Müstəqillik illərində elm sahələrinin inkişafı və inteqrasiyası yeni elm sahələrinin yaranmasına səbəb olmuşdur. Xüsusilə, müasir dövrdə aviasiya, informatika, logistika, iqtisadiyyat, politologiya müstəqil elm sahələri kimi formalaşmışdır. Dəqiq elmlər (fizika, riyaziyyat), təbiət elmləri (biologiya, coğrafiya), sosial elmlər (tarix, politologiya və s.) özünəməxsus dil xüsusiyyətlərinə malikdir. Bu baxımdan üslublar ədəbi dillə qarşılıqlı əlaqədə inkişaf edir və bu üslublar içərisində elmi üslub yaranma xüsusiyyətlərinə, spesifik əlamətlərinə görə başqa üslublardan fərqlənir. Yeni biliklərin yaradılması və sistemləşdirilməsi mütləq şəkildə toplanmış faktların ümumiləşdirilməsini tələb edir. Bu ümumiləşdirmələr elmi üslubu formalaşdırır və əsas xüsusiyyətləri onu başqa üslublardan fərqləndirir. Elmi üslubu başqa üslublardan fərqləndirən mühüm əlamətlərin nəzəri baxımdan təyin edilməsi, mətnin təşkiledici vahidləri arasında əlaqə formalarının müəyyənləşdirilməsi, elmi üslubun inkişaf istiqamətləri və onun əsas vahidləri olan terminoloji leksikanın zənginləşmə yollarına təsir edən amillər, onlar arasında əlaqənin təyini dilçilikdə öz həllini tapmamışdır. Müstəqillik illərində elm sahələrinin genişlənməsi elmi üslubun inkişaf istiqamətlərinə də təsir edir. Elmin müxtəlif sahələrinin inkişafı,

---

[2] Əlizadə, A.C. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin elmi üslubu. /A.C.Əlizadə – Bakı: – 1996, – 104 s.

[3] Ağayeva, A.R. Müasir Azərbaycan ədəbi dili üslublarının qarşılıqlı əlaqəsi / A.R. Ağayeva fil. elm.dok... dis. – Bakı: – 2011. –383 s.

informatika, kompüter texnologiyalarının, eləcə də sosial elmlərin sürətli tərəqqisi yeni anlayışların yaranmasına səbəb olur. Bu anlayışların nominasiya prosesi, termin yaradıcılığında elmi anlayışların yaranmasının əsas istiqamətləri, eləcə də dilin daxili imkanları hesabına və alınmalar hesabına yaranan terminlərin yaranma üsulları və normaları müəyyənləşdirilməlidir. Alınma terminlərin ədəbi dilin normalarına uyğunlaşdırılması zəruri tələb olduğu kimi, ümumişlək sözlərin terminləşməsində özünü əks etdirən spesifik əlamətlər nəzərə alınmalıdır. Ölkələr arasında siyasi, iqtisadi əlaqələrin genişlənməsi, dünyada elm sahələrinin müxtəlif istiqamətdə inkişafı dilə davamlı olaraq yeni terminlərin daxil olmasını zəruriləşdirir. Müasir dövrdə elmi üslubun inkişafı prosesində müxtəlif elm sahələri ilə bağlı terminlər birbaşa Avropa dillərindən alınır. Bu prosesdə alınma terminlərin mənimsənilməsi və standartlaşma formaları müəyyənləşdirilməlidir. Elmi üslubun inkişafında mühüm rolu olan terminlərin yaranmasına yeni müstəvidən yanaşaraq onların formalaşma yollarının təyini də zərurət təşkil edir.

Müstəqillik illərində ədəbi dilin inkişafında müxtəlif elm sahələri ilə bağlı yazılmış əsərlər mühüm rol oynayır. Elmi üslubda yazılmış bu əsərlərin lüğət tərkibinin, qrammatik və sintaktik quruluşunun xüsusiyyətləri müəyyənləşdirilməlidir. Çünki dilin lüğət tərkibində baş verən dəyişmələr, dilin qrammatik xüsusiyyətləri elmi əsərlərin mətnlərində öz əksini tapır. Bu xüsusiyyətlərin təyin edilməsi elmi üslubda yazılan əsərlərin spesifik dil xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir. Azərbaycan dilçiliyində elmi üslubla bağlı bu problemlərin həlli mövzunun aktuallığını şərtləndirir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyektini müstəqillik illərində Azərbaycan ədəbi dilində elmi üslubun inkişaf yollarının müəyyənləşdirilməsi təşkil edir. Müstəqillik illərində Azərbaycan dilində elmi üslubun funksionallığını şərtləndirən amillərin və zənginləşmə mənbələrinin təyin edilməsi tədqiqatın predmetidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini müstəqillik illərində Azərbaycan ədəbi dilində elmi üslubun inkişaf prosesinin və istiqamətlərinin araşdırılması təşkil edir. Bu məqsədin

yerinə yetirilməsi üçün dissertasiyada aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Azərbaycan ədəbi dilində elmi üslubun inkişafını özündə əks etdirən elm sahələrini müəyyənləşdirib təhlil etmək;
- Elmi üslubun normalaşmasını və ədəbi dillə qarşılıqlı əlaqəsini dil faktları əsasında araşdırmaq;
- Müstəqillik illərində Azərbaycan ədəbi dilində elmi üslubun inkişafını və onun spesifikasını müəyyənləşdirmək;
- Elmi üslubun inkişafında elmin müxtəlif sahələrinin rolunu aydınlaşdırmaq;
- Elmi üslubla bağlı terminoloji leksikanın inkişaf istiqamətlərini araşdırmaq, yaranma yollarını və mənbələrini müəyyənləşdirmək;
- Elmi üslubla bağlı əsərlərdə dilin müxtəlif səviyyələrinin ifadə olunma mexanizmini müəyyənləşdirmək;
- Elmi üslubda yazılmış əsərlər əsasında dilin leksik səviyyədə inkişafını müəyyənləşdirmək;
- Elmi üslubla bağlı əsərlərdə termin yaradıcılığı prosesini izləmək, onun spesifik cəhətlərini təyin etmək;
- Elmi üslubda yazılmış əsərlərdə dilin daxili imkanları hesabına terminoloji leksikanın inkişafını müəyyənləşdirmək;
- Elmi üslubda yazılmış əsərlərdə ədəbi dilin zənginləşməsində mühüm rolu alan alınmaların dilə daxilolma prosesini müəyyənləşdirmək;
- Müstəqillik illərində elmi üslubun inkişaf qanunauyğunluqlarini dəqiqləşdirmək;
- Elmi üslubun formalaşmasının məntiqi-linqvistik əsaslarını müəyyənləşdirmək;

**Tədqiqatın metodları.** Tədqiqat işində elmi üslubun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün təsviri və müqayisəli metodlardan istifadə olunmuşdur. Tədqiqat zamanı mənbə kimi elmi üslubun inkişafını əks etdirən ikidilli və çoxdilli terminoloji lüğətlər əsas götürülmüşdür.

**Müdafiəyə çıxarılan müddəalar.** Tədqiqat prosesində müdafiəyə çıxarılan müddəalar aşağıdakılardır:

- Müstəqillik illərində elmi üslubun tematik, struktur-semantik cəhətdən tədqiqi Azərbaycan dilinin lüğət tərkibinin öyrənilməsinə, funksional imkanlarının müəyyənləşdirilməsinə imkan verir.
- Elmi üslubda yazılmış müxtəlif elm sahələri ilə bağlı əsərlər ədəbi dili inkişaf etdirir.
- Elmi üslubla bağlı yazılmış elmi əsərlərin lüğət tərkibi elm sahələrində səciyyəvi xüsusiyyətlər daşıyır, alınma və milli sözlərdən istifadə balansı bir-birindən fərqlənir.
- Müasir Azərbaycan ədəbi dilində elmi üslubda beynəlxalq leksika işləkliyi ilə seçilir.
- Elmi üslubun inkişafı ilə bağlı yaranan terminoloji leksika ədəbi dili zənginləşdirir.
- Elmi üslubda yazılmış elmi əsərlərdə işlənən alınma terminlər Azərbaycan ədəbi dilinə uyğunlaşdırılır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq müstəqillik illərində Azərbaycan ədəbi dilində elmi üslubun inkişaf istiqamətləri, dil xüsusiyyətləri, terminoloji leksikanın elmi dilin vahidləri kimi zənginləşmə mənbələri nəzəri aspektdə kompleks şəkildə tədqiq olunmuşdur. Dissertasiyada müstəqillik illərində elmi üslubun səciyyəvi əlamətləri, qrammatik və sintaktik dil xüsusiyyətləri müxtəlif elm sahələri çərçivəsində Azərbaycan dilində yazılmış elmi əsərlər əsasında araşdırılmışdır. Eyni zamanda elm sahələri tematik cəhətdən qruplaşdırılmış, elmi üslubun zənginləşməsinə təsir edən amillər və elm sahələrində işlənən terminlər zəngin faktlarla şərh olunmuşdur. Tədqiqatda elmi üslubda yazılmış əsərlərin lüğət tərkibi və söz yaradıcılığı prosesi geniş şəkildə tədqiq edilmişdir. Azərbaycan ədəbi dilində elmi üslubun qrammatik səviyyədə normativliyinin qorunub saxlanması, elmi üslub və norma məsələləri, elmi üslubun əsas vahidləri olan terminlərin yaranma yolları və mənbələri müəyyənləşdirilmişdir. Elmi üslubda yazılmış elmi əsərlərin sintaktik quruluşunun inkişafına təsir edən üslub fərqləri üzə çıxarılmış, Azərbaycan ədəbi dilin inkişafına təsir edən amillər bütün dil səviyyələri əsasında faktlarla təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Müstəqillik illərində Azərbaycan ədəbi dili müxtəlif istiqamətlərdə inkişaf

etmişdir. Bu illərdə elm sahələri ilə bağlı çoxsaylı elmi əsərlər yazılmış və ədəbi dili zənginləşdirmişdir. Onların dil xüsusiyyətlərinin tədqiqi elmi üslubun nəzəri-konseptual əsaslarını, ədəbi dil normaları çərçivəsində inkişaf meyarlarının müəyyənləşdirilməsinə yeni istiqamət verir. Bu baxımdan elmi üslubda yazılan əsərlər Azərbaycan ədəbi dilində terminoloji leksikanın inkişafını, söz yaradıcılığı prosesini, alınma terminlərin yaranma mənbələrini və mənimsənilmə yolları ilə bağlı nəzəri məsələlərin dəqiqləşdirilməsinə zəngin faktlar verir. Bu zəngin faktlar Azərbaycan dilində elmi üslubun inkişaf istiqamətlərini, elmi vahidlərin yaranma mənbələrini nəzəri baxımdan müəyyənləşdirməyə imkan verir. Tədqiqat prosesində elmi dilin inkişafını üzündə əks etdirən zəngin terminoloji vahidlər şərh olunmuşdur. Bu zəngin faktlar Azərbaycan dilində elmi üslubun inkişaf istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Praktik cəhətdən isə dissertasiyada araşdırılmış elmi üslubun əsas vahidləri olan terminlər əsasında müxtəlif elm sahələrinə aid ikidilli və izahlı lüğətlərin, eləcə də çoxdilli terminoloji lüğətlərin tərtibində, dərsliklərin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi:** Tədqiqat işinin əsas nəzəri müddəaları Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi məcmuələrdə nəşr olunmuş məqalələrdə, eləcə də beynəlxalq simpozium və konfranslardakı məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsində yerinə yetirilmişdir.

**Tədqiqatın struktur bölmələrinin ayrılıqda həcmi ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısından ibarətdir. Giriş 6 səhifə (12, 106 işarə), I fəsil 30 səhifə (57, 718 işarə ), II fəsil 43 səhifə (85, 810 işarə), III fəsil 37 səhifə (76, 873 işarə), nəticə 3 səhifə (4, 441 işarə) və istifadə olunmuş ədəbiyyat 20 səhifə, ümumi həcmi 144 səhifədən, 237, 048 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat işinin elmi yeniliyi, onun metodoloji bazası, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, eləcə də dissertasiyanın aprobasiyası haqqında məlumat verilir.

Birinci fəsil **"Müstəqillik illərində Azərbaycan ədəbi dilində elmi üslubun inkişafı"** adlanır. Bu fəsildə elmi üslubun tədqiqi tarixi, səciyyəvi əlamətləri, inkişaf istiqamətləri araşdırılmışdır. Birinci fəslin birinci paraqrafı "Azərbaycan ədəbi dilində elmi üslubun tədqiqi" adlanır. Qeyd olunduğu kimi XX əsrin birinci yarısında dilçilikdə müstəqil sahə kimi formalaşmış üslubiyyat ədəbiyyatşünaslıq çərçivəsində araşdırılmışdır. Üslubiyyatla bağlı ilk tədqiqat əsərləri İ.B.Arnold, V.V.Vinoqradov, İ.A.Volina və başqalarının adı ilə bağlıdır[4]. Azərbaycanda bu sahədə ilk fundamental tədqiqat işini Ə. Dəmirçizadə qələmə almış, üslubları fərqləndirən dil xüsusiyyətlərini dil faktları ilə şərh etmişdir[5].

XX əsrin əvvəlləri Azərbaycan ədəbi dilində elmi əsərlər, dərsliklər və lüğətlərin yazılması dövrü kimi xarakterizə olunur. Bu dövrdə ana dilində elmi əsərlərin yazılması ilə elmi üslub yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu baxımdan Afina Əlizadənin dissertasiyasında XX əsrin əvvəllərində elmi üslubun inkişaf meylləri, leksik, qrammatik və sintaktik xüsusiyyətləri təhlil olunmuşdur. Təhlillərdən aydın olur ki, dövrün elmi üslubu sinkretik xarakterdədir və ayrı-ayrı elmlərdən bəhs edən dərsliklərin, elmi əsərlərin və lüğətlərin terminoloji leksikası, morfoloji və sintaktik vasitələri ilə xalq danışıq dilinin dialektik vəhdətini təşkil edir.

---

[4] Арнольд, И.В. Стилистика современного английского языка / И.В. Арнольд – Москва: – Просвещение. – 1981. – с.295; Виноградов, В.В. Проблемы русской стилистики / В.В. Виноградов – Москва: – Высшая школа. –1981. – с.319; Волина, И.А. О специфике научного стиля / И.А. Волина. –Москва: – Наука. –1977. – с.26-34.

[5] Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı /Ə.Dəmirçizadə. –Bakı: – Azərtədrisnəşr. –1962. – 211 s.

Afaq Ağayevanın tədqiqatında müxtəlif üslubların bir-birinə təsiri, inkişaf prosesi və qarşılıqlı şəkildə inkişafı təhlil olunmuşdur. Şəbnəm Həsənli-Qəribovanın "XIII-XVI əsrlərdə türk dillərində elmi üslub"[6] adlı doktorluq dissertasiyasında qoyulan problemlər aktuallığı ilə seçilir. Tədqiqatda türk dillərində elmi üslubun inkişaf istiqamətləri, yaranma mənbələri və üsulları sistemli şəkildə araşdırılmışdır.

Dissertasiyanın birinci fəslinin ikinci paraqrafı **"Müasir Azərbaycan ədəbi dilində elmi üslubun spesifik xüsusiyyətləri"** adlanır. Müəyyənləşdirilir ki, elmi üslub bir sıra xarakterik əlamətlərinə görə başqa üslublardan fərqlənir. Bu fərqlər müxtəlif baxımdan təhlil olunaraq əsas xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırılmışdır:

1. Elmi üslubda yazılan əsərlərdə elmi fikirlər ifadə olunur.
2. Elm sahələrinin çoxşaxəliliyi və onların inkişafı ilə bağlı yazılan elmi əsərlər elmi üslubun inkişafında başlıca amildir.
3. Elmi dilin əsas vahidləri terminlərdir.
4. Elmi üslubun inkişafında ekstralinqvistik amillər əsasdır.
5. Elmi üslubda beynəlmiləl və alınma terminlərin işlənməsi üstünlük təşkil edir.
6. Elmi üslubda məntiqlik, aydınlıq, dəqiqlik, tamlıq əsasdır.

Terminlərdə məntiqlik, obyektivlik, eləcə də dəqiq təyin edilmiş anlayışı birmənalı ifadə etməsi əsas əlamətlərdəndir. Termin-anlayış uyğunluğunun birmənalı olması, dəqiqlik və səlislik üslub cizgilərinin göstəriciləridir. Elmi üslubun əsas funksiyası fikirləri geniş mənada məntiqi cəhətdən izahetmədir. İzahetmə elmi düşüncənin mərhələlərini, dərketmə prosesini və məntiqi dərkini özündə birləşdirir. Elmi üslubda müxtəlif konstruksiyalar işləkliyi ilə seçilir və elmi üslubun müxtəlif istiqamətləri elmi dili zənginləşdirir və ədəbi dilin potensialını üzə çıxarır.

Birinci fəslin üçüncü paraqrafı **"Müstəqillik illərində elm sahələrinin inkişafı və onların tematik bölgüsü"** adlanır. Elmlərin müxtəlif istiqamətlərdə inkişafı ilə əlaqədar olaraq yeni anlayışların

---

[6] Həsənli-Qəribova, Ş. Orta əsrlər türkdilli elmi üslubun leksik-qrammatik xüsusiyyətləri /Ş. Həsənli-Qəribova. –Bakı: – "Savad". – 2022. – 264 s.

yaranması ayrı-ayrı sahələrin lüğət tərkibini, elmi dilin terminologiyasını ümumilikdə isə elmi üslubu zənginləşdirir. Elmi üslub özündə müxtəlif elm sahələrini əhatə edir. Müxtəlif dövrlərdə elmlərin bir-birindən ayrılması, müstəqil elm sahələrinin yaranması elmi üslubun da inkişafına təsir edir. Elmlərin diferensiallaşması yeni sahələrin yaranmasına səbəb olur. Elmlərinin müasir inkişaf səviyyəsi, yeni istiqamətlərin yaranması elmi üslubun mikrosahələrini yaradır. Bu sahələrin tətbiqi elmi tədqiqatların inkişaf dinamikasına təsir edir və sistem yeni sahələrə parçalanır. Məsələn, kimyəvi proseslərin araşdırılmasında riyazi və fiziki qanunların tətbiq olunması yeni sahələrin yaranmasına səbəb olur. Fiziki kimya, riyazi kimya və kvant kimyası bu elmlərin qarşılıqlı əlaqəsi ilə formalaşmışdır. Zaman keçdikcə texnika irəlilədikcə mexanika sahəsində tətbiqi riyaziyyat, mexaniki riyaziyyat, ehtimal nəzəriyyəsi, avtomatik qurğular, qurğular nəzəriyyəsi, qurğuların dinamikası, elastiklik və plastiklik nəzəriyyələri, qazodinamika və s. bu kimi onlarla müstəqil elm sahələri yaranmışdır. Müstəqillik illərində elmlərin inkişafı ilə əlaqədar olaraq onların fəaliyyət sahələrinin genişlənməsi, kompüter texnikasının, internetin geniş vüsət alması elmi üslubun müxtəlif istiqamətlər üzrə inkişafına zəmin yaradır. Elmi üslubun inkişaf istiqamətləri elm və texnikanın, informatika, kompüter texnologiyalarının sürətli tərəqqisi ilə bilavasitə əlaqədar olaraq elmi dil vahidləri də ədəbi dili zənginləşdirir.

Birinci fəslin dördüncü paraqrafı **"Müasir Azərbaycan ədəbi dilində elmi üslubun altüslubları"** adlanır. Elmi üslubun müxtəlif istiqamətlərdə inkişafı onun daxilində altüslubları yaradır. Bu altüslublar həm sahəyə, həm də dil vahidlərinə görə fərqlənir. Funksional üslublar spesifik üslub markerlərinə malikdir. Bu markerlər müvafiq üslubun tədqiqi prosesini təyin edir və xüsusi əlamətlərlə səciyyələnir. Elmi mətndə mücərrəd ümumiləşmə müəyyən qrammatik vasitə və formalardan, eləcə də cümlə tiplərindən istifadə zamanı özünü göstərir. Bu üslubi dominantlar tipik, müntəzəm təkrarlanan və ona görə də standartlaşmış xarakteristikalara çevrilmişdir. Çünki *"obyektivlik və qeyri-qətilik, ümumiləşmə, məntiqilik, isbatlılıq, dəqiqlik və aydınlıq, eləcə də*

*adresata yönəldilmiş kommunikativ ünvanlanma, yaxud şərhin dialoqluğu üslubi dominantlara aid edilir*[7]*"*. Qeyd edilən üslub cizgiləri üslubyaradıcı ekstralinqvistik amillərin təsiri nəticəsində meydana gəlir, dil vasitələrini, strukturları, mətndaxili vahidləri deyil, məhz verilənlərin işlədilməsində xüsusi sistemliyi təyin edir.

Elmi diskurs çərçivəsində variativ təkrarlar aşağıdakı vacib mətnyaradıcı vəzifələri həyata keçirir: 1) əsas söyləmin məzmununu ümumiləşdirmə; 2) konkretləşdirmə; 3) izahetmə; 4) dəqiqləşdirmə; 5) biliyin əsas komponentlərini qabartma; 6) əvvəlki fikirlərə yönəltmə, yaxud retrospektiv funksiya; 7) oxucunun fikrini yeni söylənilləcək fikrə yönəltmək və ya prospektiv funksiya. Bu xüsusiyyətlər nəzəri düşüncəni məntiqi anlayış formasında reallaşdıran elmi üslub üçün səciyyəvidir.

İkinci fəsil **"Müstəqillik illərində Azərbaycan ədəbi dilində elmi üslubun leksik xüsusiyyətləri"** adlanır. Bu fəslin birinci paraqrafında Azərbaycan ədəbi dilində elmi üslub və termin yaradıcılığı prosesi xarakterizə edilmişdir. Qeyd edilir ki, elmi əsərlərin leksikası ümumişlək sözləri və terminləri əhatə edir. Lakin elmi əsərlərin lüğət tərkibi daha çox terminliliyi ilə səciyyələnir. Xüsusi funksiyalı sözlər-terminlər elmi mətnlərdə elmi informasiyanın verilməsi üçün başlıca leksik vasitə kimi çıxış edir. Elmi mətnlərdə koqnitiv informasiya müxtəlif sahələri əhatə edir. Bu baxımdan mətnin təhlili prosesində elmi üslubun qarşısında ekstralinqvistik komponentlərin nəzərə alınması məsələsi də durur. Yəni, *"üslub araşdırmaları mətn hüdudlarından kənara çıxaraq öz tədqiqat dairəsinə mətnin müəllifini də cəlb edir. Belə yanaşma tədqiqatın miqyasını genişləndirir*[8]*"*.

Elmi üslub üçün ardıcıllıq səciyyəvi xüsusiyyətdir. Mətndə cümlələrin qurulması kontekst daxilində ifadə edilən məzmunun situasiyaya uyğun verilməsidir. Bu üslubda fikrin xətti inkişafı aparıcıdır və məzmun elm sahələrinə uyğun terminlərlə ifadə edilir.

---

[7] Колшанский, Г.В. Контекстная семантика. / Г.В. Колшанский.–Москва: – Наука. –1980. – с.154

[8] Кожина, М.Н., Дускаева, Л.Р. Стилистика русского языка. / М.Н. Кожина. Л.Р. Дускаева. –Москва: – Наука. –2008. – 464 с.

Ona görə də mətn parçasının məzmunu verilən cümlələrdən və onların qurulmasından asılıdır. Elmi mətnlərdə fikrin ifadəsi üçün terminlərin işlənməsi və onların definitivləşməsi prosesi termin yaradıcılığını özündə əks etdirir. Elmin müxtəlif sahələri ilə bağlı termin yaradıcılığında semantik, morfoloji, sintaktik, kalka və abreviatur üsulundan geniş istifadə olunur.

İkinci fəslin ikinci paraqrafı **"Elmi üslubda semantik üsulla termin yaradıcılığı prosesi"** adlanır. Elm sahələri inkişaf etdikcə anlayışlar sistemi zənginləşir və bunların nominasiyasına ehtiyac yaranır. Müasir dövrdə Azərbaycan dilində əvvəlcədən mövcud olan sözlərin elmin-texnikanın müxtəlif sahələrində yeni məna qazanaraq terminləşməsi daha geniş şəkildə müşahidə olunur. Ona görə də elmin bütün sahələrində bir terminin müxtəlif anlayışları ifadə etməsi semantik üsulla söz yaradıcılığının aktuallığını əsaslandırır. Bu prosesdə termin əvvəlki mənasını saxlamaqla yanaşı, əlavə yeni məna qazanaraq anlayışı adlandırır. S.Sadıqova yazır: *"Semantik üsulla termin yaradıcılığı prosesində yaranmış anlayışı ifadə etmək üçün dilin sözyaratma üsulları əsasında yeni terminlərin yaradılmasına deyil, dildə əvvəlcədən mövcud olan müxtəlif məzmunlu leksik vahidlərə yeni mənalar verməklə elmi-texniki anlayışlar yaradılır"*[9].

Sözün formasını saxlamaqla yeni mənalı terminlərin yaranması dildə anlayışların ifadə formalarından biri kimi fəal iştirak edir. Məsələn, "medium" latın dilindən Azərbaycan dilinə keçərək həm diplomatiyada, həm jurnalistikada fərqli mənalar ifadə edir. Jurnalistikada qəzet, televiziya və s. kommunikasiya vasitələrinin ümumilikdə götürülmüş adı mənasında, diplomatiyada isə həm ətraf mühitdə baş verən hadisələrə həssaslıqla yanaşaraq onun təsvir və şərh olunmasında mühüm vəzifə yerinə yetirən şəxs, həm də cəmiyyətdə insanlar arasında vasitəçilik edən, əlaqə quran, fövqəladə bacarıqlara malik şəxs anlayışlarını ifadə edir. Yaxud da "diyircək" termini müxtəlif sahələrdə işlənərək yeni anlayışları adlandırmışdır: 1.Körpə uşaqlar yenicə ayaq açdıqda onlara yeriməyə

---

[9] Sadıqova, S.A. Azərbaycan dilinin terminologiyası. / S.A. Sadıqova. –Bakı: –Elm. –2011. – s.120.

öyrətmək üçün istifadə edilən arabacıq; 2. Kiçik metal təkərcik (məs: mebellərin, poyalların və s. ayaqları altında); 3. idmanda idman oyunlarında istifadə edilən təkərcikli konki. 4. texnikada barabana və ya təkərəoxşar blok kimi müxtəlif maşın və mexanizmlərin içərisində yerləşir[10]".

Semantik üsulla yaranan terminlər daha çox milli dil vahidlərinin terminləşməsi ilə diqqəti cəlb edir.

İkinci fəslin üçüncü paraqrafı **"Elmi üslubda morfoloji üsulla termin yaradıcılığı"** adlanır. Elm sahələrində terminlərin yaranmasında morfoloji üsul məhsuldarlığı ilə seçilir. Elmi üslubda olan mətnlərdə morfoloji üsulla yeni terminlərin yaranmasında aşağıdakı sözdüzəldici şəkilçiləri daha məhsuldardır:

-çı, -çi, -çu, -çü: kompüterçi, tərtibatçı, proqramçı, əməliyyatçı, sifarişçı, tərtibatçı, tələbatçı və s.;

-lı, -li,-lu,-lü: uzunmüddətli, təyinatli, təkrarlı, sığortalı və s.;

-ma, -mə: hidratlaşma, filizçökmə, berezitləşmə, miqmatişləmə, komplektləşdirmə, boşdayanma, yükləmə və s;

-cıq, -ciq, -cuq, -cüq: düyüncük, başcıq və s.;

-lıq, -luq, -liq, -lüq: yararlılıq, uzunluq, kommunikativlik, diskursivlik, tekstuallıq, intertekstuallıq, ömürlük, öhdəlik və s.;

-ici, -ıcı, -ucu, -ücü: vurucu, verici, partlayıcı, təhsilverici və s.;

-ış, -iş, -uş, üş : ödəniş, baxış, davranış, qarışıq, yürüş və s;

Eləcə də -ıq, -ik, -uq, -ük; -maq, -mək; -qaç, -ğac, -kəc, -gəc; -qan, -kən, -ğan, -gən ;sız, -siz, -suz, -süz; -ım, -im, -um, üm; -ca, -cə; -ça, -çə şəkilçiləri elmin müxtəlif sahələrində termin yaradıcılığında məhsuldarlığı ilə seçilir.

İkinci fəslin dördüncü paraqrafı **"Elmi üslubda sintaktik üsulla termin yaradıcılığı"** adlanır. Bu bölmədə mətnin qurulması və təşkilinə ənənəvi mövqedən yanaşılaraq sintaktik konstruksiyaların əsas xüsusiyyətləri təyin edilmişdir. Bədii mətndə müəllif iki personajın bir-birinə münasibətini öz məqsədinə, şəraitə uyğun olaraq müxtəlif şəkildə şərh edə bilirsə, elmi mətndə müəllif anlayışlar arasındakı əlaqə münasibətlərini fakt və sübutlarla təyin

---

[10] Azərbaycan dilinin izahlı lüğəti II cild. – Bakı: – "Ensiklopediya". – 1976. – s.591 .

edir. Müxtəlif elm sahələrində bu əlaqələndirmə, sübut və isbatlar fərqli şəkillərdə həyata keçirilir. Ona görə də elmi mətndə termin yaradıcılığında sintaktik üsuldan geniş istifadə olunur. S.Sadıqova yazır: *"Termin yaradıcılığında iki və daha artıq sözün birləşərək mürəkkəb söz və söz birləşməsi şəklində elmi anlayışı ifadə etməsi terminologiyanın zənginləşməsində mühüm rol oynayır. Terminoloji sistemin təhlili göstərir ki, elm və texnikanın müxtəlif sahələrinə aid terminlərin yaranmasında sintaktik üsul xüsusi əhəmiyyət daşıyır"*[11]. Elmi üslubda bu üsul daha çox elmi mətnin təşkili prosesini həyata keçirir. Məsələn, *"Kompleks çertyojdan görünür ki, izlərlə verilmiş α frontal müstəvisinin horizontal izi X oxuna paraleldir. F proyeksiya müstəvisinə paralel yerləşmiş üçbucağın frontal proyeksiyası özü boyda üçbucaqdır. Bu üçbucağın horizontal proyeksiyası X proyeksiya oxuna paralel düz xətt parçasıdır"*[12] .

Elmi üslubda sintaktik üsulla yaranan terminlərin strukturuna görə bir vurğu altında deyilən mürəkkəb termin, iki sözün qoşa şəkildə yanaşı işlənməsi və söz birləşməsi şəklində olan modelləri diqqəti cəlb edir. Komponentləri sadə söz olan mürəkkəb modelli terminlər "sadə söz+sadə söz", yaxud "kök+kök+şəkilçi" modeli əsasında düzəlir.

İkinci fəslin beşinci paraqrafı **"Müstəqillik illərində elmi üslubda abreviaturlar"** adlanır. Elmi texniki tərəqqi ilə bağlı yazıda informasiyanın ötürmə vasitələrinin genişliyi, kodlaşdırma ilə mətn arasındakı uyğunluğun tənzimlənməsi elmi fikrin əsas ifadə formalarındandır. Tədqiqatlarda qeyd edildiyi kimi abreviatur yolla yaranan terminlər lüğət tərkibini zənginləşdirmir, sadəcə ilkin dil vahidinin qısaldılmış variantının düzəldilməsinə səbəb olur. Bununla yanaşı bu ixtisarların dilin leksik qatına keçmək imkanı istisna edilmir, onun dilin tarixi inkişafı gedişində müstəqil sözə çevriləcəyinin mümkünlüyü qənaətinə də gəlinir. Qeyd edildiyi kimi *"müxtəlif növlü abreviaturların yaranması ilə nəticələnən*

---

[11] Sadıqova, S.A. Azərbaycan dilinin terminologiyası. / S.A. Sadıqova. –Bakı: – Elm. –2011. – s.380 .

[12] Həbibov, İ.Ə., Məlikov, R.X. Mühəndis qrafikası. / İ.Ə. Həbibov. R.X. Məlikov –Bakı: – ADNA, – 2011, – s.165 .

*sözdüzəltmə üsulu və nitqi qısaldılmış şəkildə yazıya almaq hadisəsi hesab edilir"*[13].

Müasir dövrdə ixtisarlar müxtəlif funksional üslublarda istifadə olunur. Abreviatur üsulda əsas məqsəd çoxkomponentli birləşməni qısaltmaqdır. Terminin qısaldılması zamanı ixtisar üçün əsas motivasiya onun işləkliyi sayılır. Məsələn, fizikada ölçü vahidlərinin ümumi ixtisar sistemi qəbul edilmişdir: Amper – A, Henri –Hn, Volt – V, Vatt – Vt və s.

Predmet-anlayış əlamətlərinin ümumiliyinə görə, abrevaturlar müxtəlif tematik qruplara ayrılmışdır. Abreviatur elmi üslubda substitut funksiyanı da yerinə yetirir. Eyni xüsusiyyət sahənin beynəlxalq, eləcə də beynəlmiləl terminlərinə də xasdır.

İkinci fəslin altıncı paraqrafı **"Müstəqillik illərində elmi üslubda alınmalar"** adlanır. Qeyd olunduğu kimi elmi əsərlərdə sahə anlayışları müəyyən bir sistem əmələ gətirir, sistemin elementləri isə bir-biri ilə qarşılıqlı əlaqədə olur. Sahə, terminin mövcud olduğu xüsusi oblastdır. Bu oblast daxilində termin onu səciyyələndirən əsas cəhətləri özündə ifadə edir. Oblast məntiqi ardıcıllıqla təyin edilir və kənar təsirlərdən qorunur. Anlayış definisiya tələb etdiyinə görə, onu ifadə edən mətn formalaşır. Bu mətn anlayışın definisiyasıdır. Elmi üslubun mühüm funksional vahidi termindir. V.P.Danilenko terminə verilmiş müxtəlif tərifləri nəzərdən keçirmiş, onların əsas xüsusiyyətlərini təyin etmiş və bunu terminin çoxaspektli linqvistik hadisə olması ilə bağlamışdır[14].

Dilə daxil olunan alınmalar elm sahələrinin inkişaf səviyyəsini özündə əks etdirir. Belə ki, elmi biliklərin keyfiyyətcə yeni elmi-nəzəri səviyyə qazanması, anlayışlar sistemində sabitləşməyə və müvafiq terminlərin təsbit, yaxud qəbul olunmasına səbəb olur. *"Dil substratı və məntiqi substrat vahidin forma və məzmunu haqqında informasiya verir. Lakin bu informasiya qeyd olunan vahidin termin olub-olmaması haqqında məlumat vermir. Bu məsələnin həlli*

---

[13] Ахманова, О.С. Словарь лингвистических терминов. – Москва: – Советская Энциклопедия. – 1966.

[14] Даниленко, В.П. Русская терминология: Опыт лингвистического описания / В.П. Даниленко. – Москва: Наука, – 1977. – с 3.

*terminoloji mahiyyətə görə həllini tapır. Terminoloji mahiyyət vahidin özünün mənasına əsasən xüsusi sahənin anlayışlar sisteminə daxil olub-olmamasını aydınlaşdırır"*[15]. Çünki bu vahidlərin terminoloji mahiyyət daşıması, nominasiya məqsədilə yaradılması faktlarda təsdiqini tapır. Müstəqillik illərində elmin müxtəlif sahələrinin sürətli inkişafı yeni məfhumların yaranması, terminlərin alınması zərurətini yaradır. Hazırda alınma terminlər Azərbaycan dilinə birbaşa Avropa dillərindən daxil olur[16].

Üçüncü fəsil **"Müstəqillik illərində elmi üslubun qrammatik xüsusiyyətləri"** adlanır. Bu fəslin birinci paraqrafında "**Müstəqillik illərində Azərbaycan ədəbi dilində elmi üslubun inkişaf qanunauyğunluqları**" araşdırılmışdır. Funksional üslublar spesifik üslub markerlərinə malikdir. Bu markerlər müvafiq üslubun tədqiqi prosesində təyin edilir. Funksional üslub ümumi və xüsusi əlamətlərlə səciyyələnir. Ümumi əlamətlər müvafiq üslubun bütün altüslubları üçün səciyyəvidir. Tədqiqat göstərir ki, elmi üslubun üç əsas altüslubu vardır: 1) akademik; 2) populyar; 3) tədris. Akademik elmi üslub sırf elmi məqsədlə yazılmış mətnlərə aid olan xüsusiyyətlərin tədqiq edilməsidir. Elmi üslubun altüslubları müxtəlif sahələrdə fərqliliyi ilə seçilir. Texniki, ictimai-siyasi, iqtisadi, linqvistik, ədəbiyyatşünaslıq, təbiət elmləri, tibb və s. altüslub janrları mövcuddur. Bu janrların hər birinin özünəməxsus leksik vahidləri mövcuddur. Eyni zamanda elmi mətnlər özünəməxsus quruluş elementləri ilə seçilir və bu struktur hissələr elmi mətni bir-biri ilə əlaqəli parçalara bölməyə imkan verir. Giriş və ya pereambulada, hər şeydən əvvəl baxılacaq və ya tədqiq ediləcək məsələ barədə məlumat verilir. Bu məlumatda mövzunun aktuallığı göstərilməklə tamamlanır, həm də onun əsas xüsusiyyətləri xarakterizə olunur. Çünki elmi təfəkkür real gerçəkliyi məntiqi kateqoriyalar vasitəsilə dərketməyə, hadisə və proseslərin mahiyyətini bu yolla açmağa xidmət edir. Aktual məsələni

---

[15] Лейчик, В.М. Оптимальная длина и оптимальная структура термина // Вопросы языкознания, – 1981. № 2, – с. 7.

[16] Məmmədli, N.B. Azərbaycan dilində alınma terminlər / N.B. Məmmədli. – Bakı: Elm və təhsil, – 2017. – 488 s.

müəyyənləşdirmək, həll üçün fərziyyə, mülahizə tapmaq, qənaət və nəticəyə gəlmək elmi yaradıcılığın əsasları olub məntiqi kateqoriyalara söykənir, onlardan qaynaqlanır. Elmi məsələlər yığcam, səlis və dəqiq şərh olunur, dəlil və sübutlar, faktlarla təsdiqlənən həllini, nəticələrini tapır. M. Kojina yazır ki, *"elmi mətnin məntiqilik, obyektivlik, ümumiləşdirmə, ardıcıllıq, dəqiqlik, səlislik kimi xüsusiyyətləri elmi yaradıcılıqda ekstralinqvistik amillərlə şərtlənir və elmi üslubun üslubi cizgiləri rolunu oynayır"*[17].

Elmi mətn üçün ciddi şəkildə gözlənilən ardıcıllıq və ayrı-ayrı cümlələrin, mətnin hər bir parçasının bir-biri ilə bağlanması səciyyəvi xüsusiyyətdir. Elmi mətnin ayrı-ayrı cümlələrində terminlər zəncir həlqələri kimi bir-birini ilə tamamlayır.

Funksional üslubiyyatda mətn anlayışı dil fenomeni, daha doğrusu, dil sisteminin səviyyəsi olaraq götürülür. Mətn ekstralinqvistik - praqmatik, sosiokulturoloji, psixoloji və digər amillərlə bağlı rabitəli tamdır. Bu tamın formalaşmasında mətnyaradıcı faktorlar əsas götürülür. Struktur-qrammatik göstəricilər vasitəsi ilə mətndaxili əlaqələr yaranır. Onu da qeyd edək ki, elmi mətnin formalaşmasında onun əsasını təşkil edən dil vahidləri həm sintaktik, həm də məntiqi-sintaktik əlaqələr şəklində bir-biri ilə bağlanır. Elmi üslub digər üslublardan fərqli olaraq elmi əsərlərin, dərsliklərin, monoqrafiyaların dilinə xas olan xüsusiyyətlərlə müəyyənləşir. Məntiqilik, ardıcıllıq, terminlərdən istifadə, öyrətmə, faktlarla anlayışların sistemliliyi ilə doğruluğun sübut olması, simvol, qrafik, cədvəl, formullardan istifadə elmi üsluba məxsus əlamətlərdir.

Bütün bunlar göstərir ki, elmi mətnlər özünəməxsus quruluş elementləri ilə seçilir və bu struktur hissələr elmi mətni bir-biri ilə əlaqəli parçalara bölməyə imkan verir. Qarşılaşdırma münasibətində isə bir-birini inkar edən elmi fikirlər komponentlər arasındakı əlaqəni gücləndirmək məqsədi ilə əks informasiya bildirən inkarlıq bağlayıcıları ilə ifadə olunur. Elmi üslubda giriş və ya preambulada hər şeydən əvvəl baxılacaq və ya tədqiq ediləcək məsələ barədə

---

[17] Кожина, М.Н. О речевой системности научного стиля сравнительно с некоторыми другим / М.Н. Кожина. – Пермь,: Наука, – 1972. – с.131.

məlumat verilir. Funksional elmi üslubun üslubi xüsusiyyətləri sırasına ardıcıllıq, terminləşmə və məntiqi qiymətləndirmə də əsas götürülür.

Üçüncü fəslin ikinci paraqrafı **"Müstəqillik illərində elmi üslubun morfoloji xüsusiyyətləri"** adlanır. Elmi üslubun spesifik cəhətləri elmi üslubun qrammatik xüsusiyyətlərinə də təsir edir. Elmi üslubda aparılan təhlilə uyğun olaraq qrammatik kateqoriyaların işlənməsi mahiyyətinə görə bir-birindən fərqlənir. Ona görə ki, elmi üslubun əsas dil vahidləri terminlərdir. Terminlərin əksəriyyəti isimlərdir və elmi fikirlərin ifadəsində isimlər işlənmə faizinə görə bütün nitq hissələrindən üstündür. Sifətlər isə müxtəlif elm sahələrində müxtəlif əlamətlərin müəyyənləşdirilməsində istifadə olunur. Bu baxımdan elmi əsərlərdə III şəxs əvəzliyinin aktivliyi müşahidə olunur. Məsələn, *"Nyutonun qanunlarından çıxır ki, cismə qüvvə təsir etmədikdə onun impulsu dəyişmir, yalnız qüvvənin təsiri ilə cismin impulsu dəyişə bilər. Yaxud da, əgər qüvvə zamandan asılı olaraq dəyişirsə, onda t zamanında impulsun x proyeksiyasının dəyişməsi ədədi qiymətcə F-in t-dən asılılıq qrafikinin t oxu ilə əmələ gətirdiyi fiqurun sahəsinə bərabər olur"*[18]. Mətndə III şəxs əvəzliyi cümlədə fikrin dəqiq ifadə edilməsi üçün başqa nitq hissələrini əvəz edərkən substitlara çevrilir, yəni ümumi işarəvilik funksiyası qazanır. Ümumi işarəvilik funksiyasının III şəxs əvəzliyində əksini tapması isə bu əvəzliklərin I və II şəxs əvəzlikləri ilə müqayisədə daha az şəxsli və subyektli olması ilə bağlıdır. Bu, o işarə əvəzlikləri də elmi üslubda geniş işlənir. Şəxs əvəzlikləri əsas nitq hissələrini əvəz edib onların yerində müxtəlif vəzifələr daşıyırsa, işarə əvəzlikləri nitq hissəsini əvəz etmədən təyinlik vəzifəsi daşıya bilir. Elmi üslubda təsdiq və inkarlıq kateqoriyası xüsusi əlamətlərlə ifadə olunur. Fikrin təsdiq forması, eləcə də hadisələrin baş verməsinin inkarı müəyyən əlamətlərlə təzahür edir. Elmi üslubun xarakterindən asılı olaraq elmi əsərlərin dilində feilin mənaca növlərindən ən çox məchul növ işlənir. Məlum feillərdə verilən fikirlərdə isə bəzi hallarda subyekt müstəqil şəkildə iştirak edir, bəzi hallarda isə cümlədə subyekt müstəqil söz şəklində iştirak etmədən

---

[18] Fizika. –Bakı: – "Abituriyent". – 2010. – s.546 .

feil məlum olur. Yəni icra olunan iş heç bir xüsusi şəkli əlamət olmadan məlum olur. Məlumdur ki, məchul mənalı fellərdə işin icrasında subyektin yerini obyekt (işin icrasına məruz qalan əşya) tutur. *M. Hüseynzadə yazır: "Diqqət etdikdə məchul feilləri əmələ gətirən kök həmişə təsirli feil olur. Lakin həmin köklərə müvafiq şəkilçi artırdıqda həmin feillər əksərən təsirsiz olur; çünki obyekt özü qeyri-fəal şəkildə iştirak etmir, xüsusən cümlənin ən fəal üzvü kimi çıxış edərək və təyin olunan obyektin suallarına cavab verə bilmir. Deməli, əksər hallarda məchul feilli cümlələrdə subyekt rolunu oynayan əşya ilə feil iştirak edir"*[19]. Deməli, məchul feillərdə məchulluq məzmunu bilavasitə ifadə olunmur, bu məzmun xüsusi şəkilçilər vasitəsi ilə yaradılır və onun mövcudluğu obyekt vasitəsi ilə aşkara çıxır.

Məchul mənalı feillərin elmi əsərlərdə işlənmə tezliyi yüksəkdir və bu onunla əlaqədardır ki, məlumat verilən müəyyən hadisə, proses təsvir olunarkən fikrin dəqiq ifadəsi üçün əsas diqqət icraçının üzərində deyil, hadisənin, prosesin üzərində cəmlənir.

Elmi əsərlərdə nəzəri fikirlərin alınması müəyyən şərtə bağlanır. Feilin şərt şəkli xüsusi şəkilçilər vasitəsi ilə yaranır. Lazım, arzu, vacib şəkillərinin şəkilçiləri ancaq feil kökünə artırıldığı halda -sa, -sə şərt şəkilçisi feil kökünə artırılmaqla yanaşı başqa şəkilçilərdən sonra da artırıla bilir. Məsələn, *"L(y)=0 tənliyinin, uyğun xarakterik tənliyin bütün kökləri sıfırdan fərqli olarsa, onda baxılan tənliyin xüsusi (a=0) həlli s dərəcəli çoxhədlidir"*[20]. Teoremlərin tərifinin verilməsində əksərən müəyyən şərt daxilində fikir yürüdülür və tərif verilir. Onu da qeyd edək ki, elmi əsərlərdə sadə şərt şəkli geniş işlənir.

Elmi əsərlərin dilində ədəbi dilin digər üslublarında öz əksini tapmayan və müşahidə olunmayan, yaxud da az müşahidə olunan feilin şəkilləri ilə bağlı aşağıdakı spesifik xüsusiyyətləri qeyd etmək olar:

---

[19] Hüseynzadə, M. Müasir Azərbaycan dili (Morfologiya). / M. Hüseynzadə. – Bakı: – Maarif. –1983. – s.356 .

[20] Əzimov, M.Ə, Səlimov, H.F. Diferensial tənliklər. / M.Ə. Əzimov. H.F. Səlimov. –Bakı: – Maarif. –1991. – s.676 .

1) Elmi üslubda feilin şərt şəkli görülən işin icrasının məzmununun açılmasını müəyyən şərtlərə bağlayır.

2) Bir sıra hallardı feilin arzu şəklinin formal əlaməti -a, -ə, -ya, -yə şəkilçiləri gərəklik məzmunu kəsb edir, arzu məzmunu öz əksini tapmır.

3) Feilin vacib şəklinin xüsusi əlaməti olan -malı, -məli şəkilçiləri feil köklərinə artırılaraq fikirlərin məntiqi izahında vaciblik anlayışı yaradır.

Elmi üslubda daha çox şühudi keçmiş zaman deyil, nəqli keçmiş zaman işlənir. Nəqli keçmiş zamanın əsas xüsusiyyəti odur ki, icra olunmuş işin xəbər verilən zaman deyil, işin icrasının şahidlik olmadan, yaxud da müşahidəçisi olmadan işin icrasının nəticəsini bildirmək üçün işlədilir. Elmi dildə müəyyən tədqiqatlarla bağlı məlumatlar nəqli keçmişdə verilmişdir. Təhlillərdən aydın olur ki, elmi əsərlərdə elmi fikirlərin verilməsi mətndə dilin bütün səviyyələrində verilmə xüsusiyyətinə görə diqqəti cəlb edir. Çünki dəqiqlik elmi üslub üçün səciyyəvi əlamətdir.

Üçüncü fəslin üçüncü paraqrafı **"Müstəqillik illərində elmi üslubun sintaktik xüsusiyyətləri"** adlanır. Elmi üslub sintaktik xüsusiyyətlərinə görə digər üslublardan fərqlənir. Elmi mətnlərdə fikrin dəqiq ifadə edilməsi məqsədilə termin birləşmələrindən və müxtəlif cümlə tiplərindən istifadə olunur. Elmi üslubda yazılan əsərlərdə sintaktik konstruksiyalar elmi fikrin ifadəsində səciyyəvi əlamətləri ilə diqqəti cəlb edir. Bununla yanaşı, onlar arasında uzlaşma, yanaşma, idarə kimi sintaktik əlaqələr də mətni təşkil edən sözlərin, birləşmələrin, eləcə də onun ayrı-ayrı kiçik hissələrinin formalaşmasında mühüm rol oynayır. Elmi üslubda işlənən birləşmələrin mühüm bir hissəsinin birinci komponenti şəkilçisiz, ikinci tərəf isə mənsubiyyət şəkilçisi qəbul edərək işlənir. Bu birləşmələr müəyyən məfhumu bildirən leksik birləşmələrdir.

Elmi üslub üçün yarımçıq cümlə, söz-cümlə növlərinin işlənməsi xarakterik deyildir. Təbiət və texnika elmlərində təfəkkürün ifadə formasına uyğun olaraq ədədlərin riyaziləşməsi prosesində düsturlardan, simvollardan, işarələrdən geniş istifadə olunur. Elmlərin müxtəlif sahələrində bitmiş fikrin tam şəkildə ifadə edilməsi üçün cümlə ilə yanaşı riyaziyyat, fizika, kimya və digər

elmlərdə tənliklərin verilməsi, teoremlərin sübutu üçün verilən reaksiyaların, düsturların da mühüm rolu vardır. Fəlsəfə, ədəbiyyat, dilçilik, tarix və s. elm sahələrində məqsəd və intonasiyaya görə cümlənin növlərindən də fərqli şəkildə istifadə olunur.

Müxtəlif elm sahələrinin xarakterik xüsusiyyətinə görə nəqli cümlələrə nisbətən sual cümələri daha çox işlənir. Nida, əmr cümlələrindən isə istifadə olunmur. Müraciət forması elmi üslub üçün xarakterik deyildir. Elmi üslubda hər bir cümlə növünün öz funksiyası, istifadə yeri var. Ona görə də elmi əsərlərdə verilən fikirlər əsasən nəqli yolla, müəllifin özü tərəfindən deyil, III şəxs vasitəsi ilə aparılır. Mətndə bu cümlələr vasitəsi ilə işin və yaxud hadisənin icrası qeyri-müəyyən şəxslərə aid olur. Verilən cümlələrdə şəxs anlayışı (işin icrasında bir neçə və daha çox şəxs iştirak edir) olsa da, cümlələrin qrammatik mübtədası olmur. Bununla yanaşı, ümumi şəxsli cümlələr də qeyri-müəyyən şəxsli cümlələr kimi xəbər əsasında formalaşır. Bu cümlələrdə iş, hərəkət üçüncü şəxsin cəminə və təkinə aid olur, lakin bu şəxslər cümlənin qrammatik mübtədası deyildir. Elmi əsərlərin dilində işlənmiş ümumi şəxsli cümlələrin xəbəri, əsasən, feilin ikinci şəxs təki və üçüncü şəxs cəmi ilə ifadə olunur. Elmi əsərlərin dilində geniş yayılmış cümlə tiplərindən biri də şəxssiz cümlələrdir. Onu da qeyd edək ki, elmi üslubda verilən mətnlərdə tabeli mürəkkəb cümlələr tabesiz mürəkkəb cümlələrə nisbətən daha çox işlənir. Elmi üslubla bağlı yazılmış əsərlərin dili ilə bağlı müşahidələr göstərir ki, elmi əsərlərdə şərt, tamamlıq, təyin, səbəb və nəticə budaq cümləli tabeli mürəkkəb cümlələr üstünlük təşkil edir.

Beləliklə, elmi əsərlərin dilinin sintaktik səviyyəsinin təhlili göstərir ki, elmi üslubda dərk olunan hadisələri anlamaq və onun xüsusiyyətlərini müəyyənləşdirmək və təfəkkürdə dərki üçün sadə geniş cümlələrdən və mürəkkəb cümlələrdən geniş istifadə olunur. Dəqiq elmlərdə şərt budaq cümləsi və səbəb-nəticə bildirən budaq cümlələr fikrin aydınlaşmasına və dəqiq şərh olunmasına imkan verir.

**Dissertasiya işindən əldə edilən nəticələr aşağıdakı kimi ümumiləşdirilmişdir:**

1. Azərbaycan ədəbi dilinin formalaşmasında üslublar qarşılıqlı əlaqədə inkişaf edir və üslubi diferensiallaşmada baş verən dəyişmələr ədəbi dilin ictimai funksiyasını genişləndirir. Elmi üslubda elm sahələri arasındakı qarşılıqlı əlaqələr ədəbi dilin normalarını sabitləşdirir və dildə leksik, qrammatik kateqoriyalar çərçivəsində elmi dilin funksiyalaşmasına təkan verir.

2. Elmi üslubun əsas səciyyəvi xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar: Elmi üslubda yazılan əsərlərdə elmi fikirlər ifadə olunur; Elm sahələrinin çoxşaxəliliyi və onların inkişafı ilə bağlı yazılan elmi əsərlər elmi üslubun inkişafında başlıca amildir; Elmi dilin əsas vahidləri terminlərdir; Elmi üslubun inkişafında ekstralinqvistik amillər əsasdır; Elmi üslubda beynəlmiləl və alınma terminlərin işlənməsi üstünlük təşkil edir; Elmi üslubda məntiqilik, aydınlıq, dəqiqlik, tamlıq əsasdır.

3. Müstəqillik illərində elmi üslubu inkişaf etdirən elm sahələrini müxtəlif qruplara ayırmaq olar: texniki elmlər (kibernetika, informatika), dəqiq elmlər (fizika, riyaziyyat), təbiət elmləri (biologiya, coğrafiya), humanitar elmlər (ədəbiyyat, dilçilik), ictimai-siyasi elmlər (tarix, fəlsəfə, diplomatiya və s.). Bütün elm sahələrini özündə birləşdirən bu qrupların hər biri inkişaf xüsusiyyətlərinə görə fərqlənir.

4. Müstəqillik illərində elmi üslub sinkretik xarakterlidir. Elm sahələri ilə bağlı dərsliklərin, elmi əsərlərin, lüğətlərin terminoloji leksikası, morfoloji və sintaktik xüsusiyyətləri elmi üslubda ifadə olunan elmi mühakimələrin ardıcıllığı terminoloji sistemi formalaşdırır. Elmi mətndə fikirlərin dəqiq ifadə olunması üçün istifadə olunan terminlər daxil olduğu sahənin məna semantikasına uyğun olaraq işlədilir və anlayışların ifadəsində həlqə rolunu oynayır.

5. Elmin müxtəlif sahələri ilə bağlı termin yaradıcılığında leksik-semantik, morfoloji, sintaktik, kalka və abreviatur üsulundan istifadə olunur. Elmi üslubda bu üsullar yeni anlayışların yaradılmasında Azərbaycan dilini zənginləşdirən əsas istiqamətlərdən biridir.

6.Azərbaycan dilində elmi üslubda mətnin formalaşmasında cümlələr bütöv semantik vahid kimi çıxış edərək elmi fikrin ifadə olunmasına dəqiqlik gətirir və məntiqi baxımdan bir-birini tamamlayır.

7. Elmi üslubda terminoloji leksikanın əsas vahidlərindən olan abreviaturlar işlənmə dərəcəsinə görə fərqlənir. Müxtəlif elm sahələrində istifadə olunan abreviaturlar elmi informasiyanın ötürülməsində əsas dil vahidi kimi çıxış edərək qənaət prinsipinin qanunauyğunluqlarına əsaslanır. Kodlaşdırma və simvollar dəqiq elmlərdə geniş şəkildə istifadə olunaraq məntiqi fikrin əsas ifadə forması kimi çıxış edir.

8. Mətndə III şəxs əvəzliyi cümlədə fikrin dəqiq ifadə edilməsi üçün başqa nitq hissələrini əvəz edərkən substitutlara çevrilir, yəni ümumi işarəvilik funksiyası qazanır. Bu, o işarə əvəzlikləri də elmi üslubda geniş işlənir. Şəxs əvəzlikləri əsas nitq hissələrini əvəz edib onların yerində müxtəlif vəzifələr daşıyirsa, işarə əvəzlikləri nitq hissəsini əvəz etmədən təyinlik vəzifəsi daşıya bilir. Ona görə də işarə əvəzliklərinə həm əvəzlik kimi, həm də isimləri konkretləşdirici, təyinedici funksiyasını yerinə yetirməklə elmi üslubda fikrin dəqiqləşməsinə imkan verir.

9. Elmi üslubda məzmun etibarılə hadisələr, verilən fikirlər indiki zamanda, müxtəlif elm sahələrində isə nəqli keçmiş zamanda verilir. Şühudi keçmiş zamandan isə istifadə edilmir, çünki verilən məntiqi fikirləri şahidlik yolu ilə ifadə etmək məntiqcə doğru deyildir. Riyaziyyat, kimya, fizika və s. əsərlərdə şərt şəklindən geniş istifadə olunur. Lazım, arzu, vacib şəkillərinin şəkilçiləri ancaq feil kökünə artırıldığı halda -sa, -sə şərt şəkilçisi feil kökünə artırılmaqla yanaşı başqa şəkilçilərdən sonra da artırıla bilir.

10. Elmi üslubda fikrin tam və dəqiq şəkildə ifadəsi üçün sadə geniş cümlələrdən daha çox istifadə olunur. Elmi üslub üçün yarımçıq cümlə, söz-cümlə növlərinin işlənməsi xarakterik deyildir. Təbiət və texnika elmlərində təfəkkür formasının ifadəsində düsturlardan, simvollardan, işarələrdən istifadə səciyyəvi əlamətlərdəndir. Çünki elmlərin müxtəlif sahələrində fikrin tam şəkildə ifadə edilməsi üçün cümlə ilə yanaşı riyaziyyat, fizika,

kimya və digər elmlərdə tənliklərin verilməsi, teoremlərin sübutu üçün verilən reaksiyaların, düsturların da mühüm rolu vardır.

11. Elmi üslubda təfəkkürün idraki formaları və onların məzmunu arasındakı zəruri əlaqələr budaq cümlələr vasitəsi ilə müəyyənləşir. Xüsusilə, mübtəda, tamamlıq, səbəb və nəticə budaq cümləli tabeli mürəkkəb cümlələrdə verilən hadisələrin xarakterik xüsusiyyəti budaq cümlə vasitəsi ilə şərh edilir.

12. Elmi əsərlərin dilində geniş yer tutan və struktur tipləri intensiv şəkildə təkrarlanan tabeli mürəkkəb cümlə növləri elmi düşüncənin ardıcıl ifadəsini təmin edən müxtəlif sintaktik quruluşlarda öz əksini tapır. Elmi mətnlər fikirlərin ayrı-ayrı hissələrinin ciddi ardıcıllığı ilə verilir və onlar arasında sıx əlaqəsi ilə xarakterizə olunur. Elmi üslub üçün daha səciyyəvi olan mətnlərdə cümlə strukturları milli ədəbi dilin normalarına uyğun olaraq verilir.

**Tədqiqat işinin əsas müddəaları öz əksini müəllifin çap olunmuş aşağıdakı məqalə və tezislərində tapmışdır.**


1.Elmi üslub, altüslub və üslub janrları məsələsi // “Müstəqillik illərində üslubların inkişafı və dilin lüğət tərkibinin zənginləşmə istiqamətləri” respublika elmi konfransı, – Bakı: – 25-26 dekabr, – 2018, – s.242-244.

2. Elmi üslubun əsas xüsusiyyətləri // – Bakı: Terminologiya məsələləri, – 2019. №2, – s.191-199.

3. Müstəqillik illərində elmi üslub və termin yaradıcılığı prosesi. // – Bakı: Dilçilik Araşdırmaları, –2020. №2, – s.88-93.

4. Elmi üslubda sintaktik üsulla termin yaradıcılığı // “Kashgarlı Mahmut” International Science, Culture and Education Congress (Dîvânu Lugâti't-Türk - 950), – Baku: march 25-27, – 2022, – s.306-310.

5. Müstəqillik illərində elmi üslubda abreviaturlar // Bakı: Dilçilik araşdırmaları, – 2022. №2, – s.108-114.

6. Terminization of Common Words in Scientific Style in the Azerbaijani Language // – Казахстан: Endless Light, – 2022. – p.273-277.

7. Elmi üslubda semantik üsulla termin yaradıcılığı prosesi // – Bakı: Terminologiya məsələləri, – 2022. №2, – s.84-89.

8. Ways of formation of terms in the scientific style in the Azerbaijan language // – Italy: Annali-d'Italia Scientific Journal, – 2023. №40. – p.35-38.

9. Scientific style in the development of literary language // "Global issues of development of philosophy in education" international scientific-practical conference, – Uzbekistan: – 12 June, – 2023. – p.146-150.

10. Müasir Azərbaycan ədəbi dilində elmi üslubun istiqamətləri // "Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri" mövzusunda Respublika elmi konfransı, – Bakı: – 12 iyul 2023, – Bakı: – s.343-346.

11. Müstəqillik illərində elmi üslubda alınmalar // – Bakı: Terminologiya məsələləri, – 2023. №2, – s.105-110.

12.Морфологические особенности научного стиля (на материале азербайджанского языка) // – Москва: Наука. Образование. Современность,– 2024. №3, – s. 2-8.

13.Экстралингвистические факторы в формировании научного стиля в Азербайджане в годы независимости // «Актуальные проблемы лингвистики и межкультурной коммуникации», – Москва: – 2026. с.17.

14.Regularities in the development of the scientific style in the Azerbaijani literary language during the years of independence // – Украина: Закарпатські філологічні студії, – 2026. № 45, Т.2 – p.130-138

Dissertasiyanın müdafiəsi 6 Oktyabr 2026-cı il tarixində saat 13:00-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr.,31, V mərtəbə.

Dissertasiya ilə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA İ.Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 3 İyul 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.06.2026
Kağız formatı: 60x84 $^{1}/_{16}$
Həcm:39 798
Tiraj: 100